# Azərbaycan idmançıları 18 medal qazanıblar

## Azərbaycan medal sıralamasında 39-cu olub

Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında on altı günlük gərgin idman mübarizəsinə yekun vurulub. AZƏRTAC xəbər verir ki, aktivində bir qızıl, yeddi gümüş və on bürünc medal olan yığma komandamız ümumilikdə 18 medal qazanıb və bu göstərici ilə Olimpiadanı 39-cu sırada başa vurub.

Hesabında 46 qızıl, 37 gümüş və 38 bürünc olmaqla ümumilikdə 121 medal olan ABŞ Olimpiadanı birinci pillədə tamamlayıb. Böyük Britaniya 27 qızıl, 23 gümüş, 17 bürünc medalla (ümumilikdə 67) ikinci, Çin 26 qızıl, 18 gümüş və 26 bürünc (ümumilikdə 70) medalla üçüncü olub. İlk onluğu Rusiya (19-19-19), Almaniya (17-10-15), Yaponiya (12-8-21), Fransa (10-18-14), Cənubi Koreya (9-3-9), İtaliya (8-12-8) və Avstraliya (8-11-10) tamamlayıb.



## Radik İsayev olimpiya çempionudur

"Rio-2016" XXXI Yay Olimpiya Oyunlarının on beşinci günündə Olimpiya yığmamızın üzvləri idmanın taekvondo, gimnastika və güləş növlərində yarışıblar. AZƏRTAC xəbər verir ki, Azərbaycan idmançıları ötən yarış günündə bir qızıl və bir bürünc medal qazanıblar.

Əvvəlcə "Rio-2016" Yay Olimpiya Oyunlarında taekvondoçuların mübarizəsinə yekun vurulub. Səksən kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan dünya və Avropa çempionumuz Radik İsayev Qazaxıstan idmançısı Ruslan Japarovu, Pekin Olimpiadasının qalibi Donqmin Çanı (Cənubi Koreya), Böyük Britaniya təmsilçisi Mahama Çonu mübarizədən kənarlaşdıraraq finala yüksəlib. Həlledici görüşdə dünya və Avropa çempionumuz Radik İsayev rəqibi Niger idmançısı Abdulrazzak İssufdan üstün olaraq XXXI Yay Olimpiya Oyunlarının çempionu olub.

## Gümüş medalçılarımız



65 kiloqram çəki dərəcəsində çıxış edən sərbəst güləşçimiz Toğrul Əsgərov qızıl medal uğrunda mübarizədə rusiyalı Soslan Ramonova məğlub olaraq Rio Olimpiadasının gümüş medalını qazanıb.

*AZƏRTAC-ın arayışı:* Toğrul Əsgərov 1992-ci il sentyabrın 17-də Azərbaycanın Gəncə şəhərində anadan olub. Güləşçimiz "London -2012" Olimpiya Oyunlarının, 2012-ci ildə Avropa çempionatının və "Bakı-2015" birinci Avropa Oyunlarının qalibi olub.

Birinci Avropa Oyunlarında güləşçimizə mükafatı Azərbaycan Prezidenti İlham Əliyev təqdim edib. İdmançımız 2012-ci ildə Yay Olimpiya Oyunlarından sonra "Şöhrət" ordeni, 2015-ci ildə isə Avropa Oyunlarında qazandığı qızıl medala görə "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.



Sərbəst güləşçimiz Xetaq Qazyumov həlledici qarşılaşmada ABŞ idmançısı Kayl Frederik Snayderlə üz-üzə gəlib və rəqibinə məğlub olaraq Olimpiya Oyunlarının gümüş medalını qazanıb.

*AZƏRTAC-ın arayışı:* Azərbaycan yığmasının üzvü Xetaq Qazyumov (97 kq) 1983-cü il aprelin 24-də anadan olub. Otuz üç yaşlı idmançı son iki Olimpiadanın bürünc (Pekin-2008 və London-2012), dünya və Avropa çempionatlarının, həmçinin "Bakı-2015" birinci Avropa Oyunlarının qızıl mükafatçısı olub.



Avqustun 21-də "Rio-2016" Yay Olimpiya Oyunlarının son günündə boks yarışlarına yekun vurulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan boks yığmasının üzvü Lorenzo Sotomayor 64 kiloqram çəkidə həlledici döyüşə çıxıb. Sotomayorun finaldakı rəqibi özbəkistanlı idmançı Fazliddin Qaybnəzərov olub. Dünya və Asiya çempionatının gümüş mükafatçısına məğlub olan təcrübəli boksçumuz Olimpiadanın gümüş medalını qazanıb.

*AZƏRTAC-ın arayışı:* Boksçumuz yarımfinalda Almaniyanı təmsil edən erməni rəqibi Artyom Harutyunyan üzərində inamlı qələbə (3:0) qazanmaqla finala yüksəlmişdi. L.Sotomayor rəqibini mübarizədən kənarlaşdıraraq, həm də boks tariximizdə yeni səhifə açmağı bacarıb. Çünki hələ bunadək Olimpiya Oyunlarında finala çıxan boksçumuz olmamışdı.

Otuz bir yaşlı təcrübəli boksçu yarımfinaladək ukraynalı Vladimir Matviyçuku, fransalı Hassan Amzili və kubalı Yasniel Toledonu mübarizədən kənarlaşdırıb.

Boks yığmamızın hesabında bunadək bir bürünc medal var idi. Komandamıza bu mükafatı Kamran Şahsuvarlı qazandırmışdı.

"Bakı-2015" birinci Avropa Oyunlarında qızıl medal qazanan L.Sotomayor 29 iyun 2015-ci ildə Avropa Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilib.

## Bürünc medalçılarımız



Sərbəst güləşçisimiz - 86 kiloqram çəki dərəcəsində çıxış edən Olimpiya çempionumuz Şərif Şərifov "Rio-2016"da ilk görüşündə Çin idmançısı Bi Şenqfenq ilə qarşılaşıb. Rəqibini məğlub edən Şərif Şərifov dörddəbir finala yüksəlib. Güləşçimiz dörddəbir finalda Polşa idmançısı Zbiqnev Baranovskiyə qalib gələrək yarımfinalda iştirak etmək hüququ qazanıb. Ş.Şərifov bu mərhələdə Rusiya idmançısı, ikiqat dünya çempionu Abdulrəşid Sadullayevə məğlub olaraq bürünc medal uğrunda mübarizə aparıb. Olimpiya çempionumuz son görüşündə Venesuela idmançısı Pedro Seballos üzərində inamlı qələbə qazanaraq "Rio-2016"nı bürünc medalla başa vurub.



"Rio-2016" XXXI Yay Olimpiya Oyunlarının on dördüncü günündə - avqustun 19-da Olimpiya yığmamızın üzvləri idmanın dörd növü - gimnastika, güləş, taekvondo və boks növlərində yarışıblar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan idmançıları ötən yarış günündə daha 3 bürünc medal qazanıblar.

Sərbəst güləşçimiz - 57 kiloqram çəki dərəcəsində çıxış edən Hacı Əliyev bürünc medal uğrunda görüşdə Bolqarıstan təmsilçisi Vladimir Dubov ilə qarşılaşıb. Rəqibini təmiz qələbə ilə məğlub edən ikiqat dünya çempionumuz Olimpiya millimizə daha bir bürünc medal qazandırıb.



Yarışda 74 kiloqram çəki dərəcəsində çıxış edən digər güləşçimiz eyni uğuru təkrarlayıb. Qeyd edək ki, C.Həsənov "Rio-2016"da ilk olaraq 1/8 finalda kolumbiyalı Karlos Arturo İzkuerdo Mendesi üstələyib. Ardınca Gürcüstan idmançısı Yakob Makaraşvilini məğlub edən azərbaycanlı pəhləvan yarımfinalda rusiyalı Ənvər Geduyevlə üzləşib. Gərgin keçən yarışda Cəbrayıl öndə olsa da sonradan üstünlüyü əldən verib və rusiyalı idmançıya məğlub olub.

İkiqat Avropa çempionu Cəbrayıl Həsənov bürünc medal uğrunda keçirilən təsəlliverici görüşdə isə özbəkistanlı Bekzod Abduraxmanova qalib gələrək "Rio-2016"nın mükafatçıları sırasında yer alıb.



Azərbaycan taekvondoçusu, dünya kubokunun sahibi, "Bakı-2015"in qalibi və son Avropa çempionu Milad Beigi Harçeqani də qələbə sevinci yaşayıb. Polşalı Pyotr Pazinski üzərində inamlı (12:0) qələbə qazanan taekvondoçumuz "Rio-2016"nın bürünc medalına sahib olub.

Gümüş medal uğrunda görüşün ilk hissəsində Harçeqaninin zərbəsi baş məşqçi Reza Mehmandustun etirazından sonra qeydə alınıb və ona 3 xal verilib. Sonradan idmançımız daha 1 xal qazanıb - 4:0.

İkinci hissəyə də Harçeqani fəal başlayıb və daha 4 xal alıb. Sonradan o, 1 xal da qazanaraq, hissəni 9:0 hesablı üstünlüklə tamamlayıb. Üçüncü hissənin əvvəlində isə Harçeqani daha 3 xal qazanaraq, təmiz qələbəyə nail olub. Beləliklə, Azərbaycana olimpiadada 14-cü medalı Milad Beigi Harçeqani qazandırıb.